# UNESCO-nun mədəni irs siyahısında Azərbaycan NİŞANLARI

## Çay mədəniyyəti, zorxana və "Molla Nəsrəddin" lətifələri...

***Yeganə BAYRAMOVA***

Azərbaycanın çay mədəniyyəti UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilib. Namizədlik UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 17-ci sessiyasında qəbul edilib.

"Çay mədəniyyəti: orijinallığın, qonaqpərvərliyin və sosial qarşılıqlı əlaqənin simvolu" nominasiyası Azərbaycan və Türkiyə nümayəndə heyətləri tərəfindən birgə hazırlanıb.

Bundan başqa, pəhləvanlıq, ənənəvi zorxana oyunları və idman növləri UNESCO-nun Qeyri-Maddi Mədəni İrsinin reprezentativ siyahısına daxil edilib. Azərbaycanın UNESCO yanında Nümayəndəliyinin "Twitter" səhifəsində qeyd olunub ki, bu mədəni irs idmançılar tərəfindən nəsildən-nəslə ötürülən ənənəvi fiziki məşqlərin müxtəlifliyinə aiddir.

"Molla Nəsrəddin" lətifələrinin şifahi ənənəsi də UNESCO-nun Qeyri-Maddi Mədəni İrsinin reprezentativ siyahısına daxil edilib. Bu nominasiyanı Azərbaycan, Tacikistan, Türkiyə, Türkmənistan, Özbəkistan və Qazaxıstan irəli sürüb.



Yeni Azərb. 2022. 3 dekabr.S.8.